# HALAL SERTİFİKATLAŞDIRMA QİYMƏT TƏLİMATI

| | | |
|---|---|---|
| **B. Abbasov**<br>Sertifikasiya şöbəsinin mütəxəssisi | **K. Şərifli**<br>Keyfiyyətə nəzarət departamentinin böyük mütəxəssisi | **V. İsmayılzadə**<br>Keyfiyyətə nəzarət departamentinin müdiri |
| Tarix: 03.04.26 | Tarix: 03.04.2026 | Tarix: 06.04.2026 |
| **Hazırladı** | **Yoxladı** | **Təsdiq etdi** |

*« Bu sənəd AQTİ mülkiyyətidir və hüquqları qanunun mülki müddəalarına uyğun olaraq qorunur »*

# MÜNDƏRİCAT

1. TƏLİMATIN MƏQSƏDİ ____ 3
2. ƏLAQƏLİ SƏNƏDLƏR ____ 3
3. ƏSAS ANLAYIŞLAR ____ 3
4. CAVABDEHLƏR ____ 3
5. FƏALİYYƏTLƏRİN TƏSVİRİ ____ 3
6. HALAL SERTİFİKATLAŞDIRMA XİDMƏT HAQLARI CƏDVƏLİ ____ 4

## 1. TƏLİMATIN MƏQSƏDİ

Bu təlimatın məqsədi Azərbaycan Qida Təhlükəsizlyi İnstitutu (bundan sonra - İnstitut) tərəfindən həyata keçirilən Halal sertifikatlaşdırma fəaliyyəti üzrə xidmət haqlarının hesablanma mexanizmini tənzimləməkdir.

## 2. ƏLAQƏLİ SƏNƏDLƏR

- **AZS OIC/SMIIC 2:2022** “Uyğunluğun Qiymətləndirilməsi – Halal sertifikatlaşdırma təmin edən təşkilatlara dair tələblər”

- AZS ISO/IEC 17065 “Uyğunluğun qiymətləndirilməsi. Məhsulların, proseslərin və xidmətlərin sertifikatlaşdırılmasını aparan orqanlara dair tələbələr”

## 3. ƏSAS ANLAYIŞLAR

- **Adam/gün** – Halal sertifikatlaşdırma xidməti zamanı 1 auditor üçün nəzərdə tutulmuş 1 günlük xidmət haqqı;

- **Halal uyğunluq ön dəyərləndirmə, müraciət və sənəd təhlili qiyməti** - Müştəri tərəfindən təqdim edilən əl kitabı, prosedur və s. sənədlərin, analiz və müayinələrin, halal uyğunluq bəyanlarının qiymətləndirilməsi tələb edilən standarta əsasən təhlili üçün alınan xidmət haqqı;

- **Audit (qiymətləndirmə) qiyməti** – Hazırlanan audit planına görə müəssisədə həyata keçirilən ilkin, illik, təkrar, plandankənar qiymətləndirmələrin xidmət haqqı. Bu qiymət müştəri müəssəsinin personal sayı və sertifikasiya sahəsinə görə təhkim ediləcək auditorların sayı və audit müddəti əsasında müəyyənləşdirilir;

- **İllik sertifikat istifadə qiyməti** – Sertifikatdan istifadə üçün müəssisə tərəfindən hər il ödəniləcək məbləğ. İllik qiymətləndirmə zamanı sertifikatlaşdırmanın dayandırılması kimi hallarda dayandırılma müddətini əhatə edən dövr üçün bu məbləğ hesablanılmır;

- **Plandankənar audit (qiymətləndirmə)** – Daxil olmuş şikayətlərin araşdırılması, baş vermiş dəyişikliklərlə, yaxud sertifikatlaşdırılması dayandırılmış müştərilərdə vəziyyətin dəyişib-dəyişmədiyini müəyyənləşdirmək məqsədilə sertifikatlaşdırılmış müştərilərdə növbədənkənar və ya bildirişsiz qiymətləndirmələrin həyata keçirilmə prosesidir.

## 4. CAVABDEHLƏR

- Şöbə müdiri
- Keyfiyyət üzrə mütəxəssis

## 5. FƏALİYYƏTLƏRİN TƏSVİRİ

**5.1.** Halal sertifikatlaşdırma qiymətinin müəyyənləşdirilməsində əsas rol oynayan adam/gün qiyməti İnstitutun Sertifikasiya şöbəsinin müdiri tərəfindən müəyyən edilir. Sertifikatlaşdırma məbləğinin müəyyənləşdirilməsi üçün müştəri müəssisəsinin personal sayı nəzərə alınmaqla Audit müddəti hesablama təlimatına (T-01) əsasən adam/gün sayı hesablanır.

**5.2.** Halal sertifikatlaşdırma zamanı İslami məsələlər üzrə mütəxəssisin auditin bütün mərhələlərində (qiymətləndirmə) iştirakı zəruridir. Sertifikatlaşdırma xidməti üzrə qiymət təklifi zamanı İslami ekspertin auditdə iştirakı audit müddətinin hesablanmasında nəzərə alınmır. ***Halal sertifikatlaşdırma çərçivəsində kəsimxanalarda (heyvan kəsimi həyata keçirilən müəssisələrdə) audit mütləq yerində keçirilməlidir. Audit qrupunun tərkibində baytar həkimin yerində iştirakı zəruridir. Sertifikatlaşdırma xidməti üzrə qiymət təklifi zamanı baytar həkimin auditdə iştirakı audit müddətinin hesablanmasında nəzərə alınmır. Lakin sertifikatlaşdırılacaq məhsulun müxtəlifliyi və ya proseslərin xüsusiyyətlərindən asılı olaraq İslami məsələlər üzrə***

***<u>mütəxəssis və baytar həkim sertifikatlaşdırma prosesində iştirak müddətini 1 (bir) gündən artıq davam etdirə bilər.</u>***

**5.3.** İlkin, illik, təkrar, plandankənar qiymətləndirimələr zamanı yol, qonaqlama xərcləri müştəri tərəfindən qarşılanır (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli qərarı ilə müəyyən edilmiş qaydada ezamiyyə xərcləri). Qiymətləndirmənin müəyyən mərhələsində sertifikatlaşdırmadan imtina edən müştəri o müddətə qədər həyata keçirilən xidmətin haqqını ödəməlidir.

**5.4.** Halal sertifikatlaşdırma fəaliyyətləri zamanı tələb edilən xidmət haqları **Halal Sertifikatlaşdırma Xidmət Haqları Cədvəlində** qeyd olunmuşdur. Müraciətin təhlili, sənəd təhlili və qiymətləndirmənin birinci mərhələsində xidmət haqqı halal sertifikatlaşdırma auditləri başlamazdan öncə müştəri tərəfindən ödənilməlidir.

| | **HALAL SERTİFİKATLAŞDIRMA XİDMƏT HAQLARI CƏDVƏLİ** | | |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| **№** | **Xidmətin adı** | **Ölçü vahidi** | **Məbləğ (ƏDV daxil) (manat)** |
| 1 | Sənədlərin yoxlanılması və təhlili | 1 adam /1 gün | 590.00 |
| 2 | Audit (qiymətləndirmə) | | |
| 2.1. | ilkin qiymətləndirmə | 1 adam /1 gün | 767.00 |
| 2.2. | illik qiymətləndirmə | 1 adam /1 gün | 472.00 |
| 2.3. | təkrar qiymətləndirmə | 1 adam /1 gün | 472.00 |
| 3.1. | İllik sertifikatdan istifadə | 1 il | 590.00 |
| 4. | Halal uyğunluq sertifikatının yenidən hazırlanması (itməsi, ünvan və ya akkreditasiya sahəsində baş vermiş dəyişiklik) (qiymətləndirmənin tələb olunmadığı hallarda) | 1 ədəd | 250.00 |
| 5 | Halal uyğunluq sertifikatının fərqli dildə (ingilis dili istisna olmaqla) hazırlanması | 1 ədəd | 250.00 |

**Qeyd:**

1. Qiymətləndirmə zamanı məhsullardan götürülmüş nümunələrin laborator sınaq analizlərinin qiymətləri Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü il 07 mart tarixli 72 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların nümunələrinin sınaq laboratoriyalarında tədqiqinə (sınağına) görə xidmət haqqının məbləği əsasında müəyyən edillmiş tariflərə uyğun olaraq hesablanır və müştəri tərəfindən ödənilir.
2. Müəssisədə plandankənar audit (qiymətləndirmə) həyata keçirildiyi halda xidmət haqqı Cədvəlin 2-ci

bəndinə əsasən hesablanaraq müştəri tərəfindən ödənilir.

**3.** İlkin və təkrar qiymətləndirmə zamanı təqdim ediləcək sertifikatlar üçün ödəniş tələb edilmir.

**Dəyişiklik cədvəli**

| Dəyişiklik № | Dəyişiklik tarixi | Dəyişiklik edilən bənd/ səhifə | Dəyişikliyin səbəbi |
|---|---|---|---|
| 01 | 10.10.2025 | Səh 3, bənd 5.2 | HAK tərəfindən açılan uyğunsuzluğun düzəldici fəaliyyəti olaraq təlimata dəyişiklik zərurəti yaranmışdır. |
| 02 | 01.04.2026 | Səh 3, bənd 5.2 | Dəyişikliklər HAK tərəfindən təsdiq edilmiş yeni rəhbər sənəd – AKR-Rh-012 (“Helal Kesim & Dayanıksız Hayvansal Ürünlerin İşlenmesi Ana Ürün Grubu için Belgelendirme Programı Rehberi”) tələblərinə uyğunlaşdırma çərçivəsində edilmişdir. |